**Orucoğlu Z.** İgidliyin müqəddəs zirvəsi // Respublika. - 2024. - 14 sentyabr. - **№ 200**. - S. 5.

**2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Daşkəsən, Kəlbəcər, Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törədib.**

Ordumuzun bəzi mövqeləri, sığınacaqlar, dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Döyüşlərdə ordumuzun 80 hərbi qulluqçusu şəhid olub, 282 döyüşçüsü isə yaralanıb. Həmin döyüşlərdə Vətən, torpaq yolunda canını fəda edən qeyrətli oğullardan biri Dövlət Sərhəd xidmətinin baş çavuşu Şəmistan Sadıxov da əsl qəhrəmanlıq nümunəsi göstərib.

1995-ci ildə Lerik rayonu, Əvilə kəndində dünyaya göz açan Şəmistan Əbdülağa oğlu Sadıxov uşaqlıqdan doğma Azərbaycanın hər qarış torpağına ürəkdən bağlanıb. İnsan həyatının dəyərini Vətənə, xalqa təmənnasız xidmətdə görüb. Şəmistan 2013-cü ildə ordu sıralarına çağırılıb. Sülhməramlı kontingentin tərkibində Əfqanıstanın Kabil şəhərində bir il xidmət edib, NATO-nun medal və sertifikatlarını qazanıb. Daha sonra DSX-da xidmət etməyə başlayıb. İşlədiyi müddətdə "Küləyə qarşı" Bakı Beynəlxalq marafonunda Dövlət Sərhəd Xidmətini təmsil edərək "Xatirə" medalı alıb. Vətən müharibəsində Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətlərində ağır döyüşlərdə iştirak edib. Laçın dəhlizinə qədər şərəfli bir döyüş yolu keçib, mərdliyi, qəhrəmanlığı əsgər yoldaşlarına da nümunə olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Şəmistan Sadıxov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Azərbaycan bayrağı" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb